**Azərbaycan İlahiyyat İnstitutu və Yozgat Bozok Universiteti**

**arasında**

**əməkdaşlıq haqqında**

**PROTOKOL**

Bundan sonra "Tərəflər" adlandırılacaq bir tərəfdən, rektor i.f.d., dos. Aqil Şirinovun təmsil etdiyi Azərbaycan İlahiyyat İnstitutu (Məhəmməd Naxçıvani küçəsi 29, AZ1065, Bakı, Azərbaycan), digər tərəfdən, rektor prof. Ahmet Karadağın təmsil etdiyi Yozgat Bozok Universiteti (Erdoğan Akdağ Kampüsü Atatürk Yolu 7. Km 66900 Yozgat/Türkiyə) akademik, təhsil və elmi tədqiqat sahəsində qarşılıqlı əməkdaşlığı inkişaf etdirmək, ümumi maraqlarını və dostluq əlaqələrini genişləndirmək məqsədilə aşağıdakılar barədə razılaşdılar:

**Maddə 1**

Tərəflər milli qanunvericilik və beynəlxalq hüquq normalarına uyğun olaraq, hüquq və qarşılıqlı hörmət əsasında uzunmüddətli qarşılıqlı əlaqələr yaradacaqlar.

**Maddə 2**

Hər iki tərəf aşağıdakı bəndlərə uyğun olaraq, əməkdaşlığı təşviq və inkişaf etdirməyi öhdəsinə götürür:

2.1. Tələbə, akademik, elmi və inzibati heyətin mübadiləsi.

2.2. Qarşılıqlı maraq doğuran sahələrdə akademik və elmi mövzulardakı fəaliyyətlərində bir-birinin bilik və təcrübəsindən faydalanmaq.

2.3. Elm və tədqiqat sahəsində əməkdaşlıq.

2.4. Birgə elmi konfrans, simpozium və seminarların, elmi-tədqiqat işləri və mühazirələrin təşkili.

2.5. Ortaq araşdırma layihələri və müştərək maraq doğuran sahələrdə elmi görüşlərin təşkilinə şərait yaratmaq.

2.6. Açıq tədris planları və tələbə hazırlıq proqramları, tədris texnologiyaları, dərslik və metodik vəsaitlər, ədəbiyyat, dövri nəşrlər, birgə fəaliyyətin istiqamət və nəticələrinə dair informasiya materiallarının mübadiləsi.

2.7. Müəllim heyətinin hazırlıq və staj keçməsi, xüsusi təlim kurslarının təşkili (tərəflərin razılığı ilə qəbul edən ali təhsil müəssisəsi müəllimləri pul mükafatı ilə təmin edə bilər).

2.8. Qarşılıqlı maraq doğuran digər təhsil, elmi və akademik məsələlər.

**Maddə 3**

3.1. Bu Protokol hər hansı qanuni öhdəlik nəzərdə tutan hüquq və vəzifələri yaratmaq üçün nəzərdə tutula bilməz.

3.2. Bu Protokol çərçivəsində əməkdaşlıq tərəflərin maliyyə və insan resurslarının mövcudluğu nəzərə alınmaqla, birgə ikitərəfli məsləhətləşmələr yolu ilə müəyyən edilir.

3.3. Bu Protokolun icrasından irəli gələn konkret layihələrin həyata keçirilməsi üçün Tərəflər hüquqi və maliyyə şərtlərini ehtiva edən müqavilələr bağlaya bilər.

3.4. Tələbə və müəllim heyətinin mübadiləsi çərçivəsində qəbul edən tərəf vaxtında müraciət edilməsi şərtilə və mövcud imkanlar daxilində gələn əməkdaş və tələbələri ali təhsil müəssisəsi nəzdində endirimli və ya ödənişsiz yaşayış yeri ilə təmin edəcək və onların sosial və mədəni inteqrasiyasını dəstəkləyəcək.

3.5. Bu Protokolun 3.4-cü bəndi istisna olmaqla, bu Protokolun həyata keçirilməsi ilə bağlı hər bir Tərəf digər Tərəflə xüsusi razılıq olmadığı təqdirdə, öz xərclərinin ödənilməsini təmin etməlidir.

**Maddə 4**

4.1. Tərəflər bu Protokol nəticəsində əldə edilən bütün məlumat və tədqiqatların nəticələrini bölüşəcəklər.

4.2. Hər iki tərəf məlumatların və tədqiqatın nəticələrinin istifadəsi və yayılması üçün yazılı təsdiqnamə verməlidir.

4.3. Əqli mülkiyyət hüquqları və nəşrlərinin idarə edilməsinin təsviri hər bir razılaşdırılmış fəaliyyətin həyata keçirilməsi haqqında müqavilədə müəyyən ediləcəkdir.

**Maddə 5**

Bu Protokolun müddəalarının tətbiqi ilə bağlı yarana biləcək bütün mübahisə və uyğunsuzluqlar Tərəflər arasında danışıqlar yolu ilə həll edilir.

**Maddə 6**

6.1. Fors-major hallarla əlaqədar Tərəflər bu Protokolda göstərilən şərti öhdəliklərin icrasını Tərəflərin iradəsi və istəyi xaricində baş vermiş, öncədən proqnozlaşdırılmayan və qarşısı alına bilməyən təbii fəlakət, epidemiya, partlayış, yanğın, vətəndaş müharibəsi və müvafiq qaydada səlahiyyətli dövlət orqanları tərəfindən yazılı surətdə təsdiq edilən analoji hadisələr səbəbindən tam və lazımınca təmin edə bilmədikdə, məsuliyyət daşımır və həmin öhdəliyin icrası baş vermiş fors-major halının müddətinə uyğun olaraq müvafiq vaxta qədər uzadılır.

6.2. Fors-major hallarının təsiri altına düşən Tərəf bu barədə digər Tərəfi belə halların başlandığı andan 10 (on) təqvim günü müddətindən gec olmayaraq xəbərdar etməlidir. Qarşı tərəfin vaxtında xəbərdar edilməməsi digər tərəfə fors-major halına əsaslanma hüququ vermir.

**Maddə 7**

7.1. Bu Protokola Tərəflərin qarşılıqlı razılığı ilə onun ayrılmaz tərkib hissəsi olan əlavə protokollar formasında rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

7.2. Bu Protokol Tərəflər arasında imzalandığı andan qüvvəyə minir və 5 (beş) il müddətində qüvvədə qalır. Tərəflərdən biri bu müddətin bitməsinə 3 (üç) ay qalmış Protokolu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər tərəfi məlumatlandırmadığı təqdirdə, Protokolun müddəti avtomatik olaraq uzadılır.

7.3. Tərəflər davam etməkdə olan konkret tədbirlərin ləğv olunması haqqında qərar qəbul etmədiyi halda, Protokolun icrasının bu qaydada dayandırılması həmin tədbirlərin icrasına təsir göstərməyəcəkdir.

7.4. Bu Protokol hər biri eyni hüquqi qüvvəyə malik olmaqla, Azərbaycan və türk dillərində hər dildə iki (2) orijinal nüsxədə tərtib edilmiş və Tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən imzalanmışdır.

**Azərbaycan İlahiyyat İnstitutu adından**

**i.f.d., dos. Aqil Şirinov**

**Rektor**

**Tarix:** 15.10.2021

**Yozgat Bozok Universiteti adından**

**Prof. Ahmet Karadağ**

**Rektor**

**Tarix:** 22.10.2021